١- [١] . Əl- firdövs, ٣: ۶٢- ۴١٧٣, Əlmöcəmül- kəbir, Təbərani, cild ٢, hədis ٢٠٣۵, Əlcamiüs- səğir, Siyuti, hədis ۵۵٩٧. İbn Əbdülbirr İstiabda imam Əli ibn ƏbiTalibin tərcümeyi halında ٣- cü cild səh, ٣۵- də belə yazır: Peyğəmbərin (s) Əliyə buyurduğu bu kəlamı (sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimidir), Rəsuli əkrəmin bir çox səhabələrindən nəql olunubdur. Bu hədis sənəd baxımından ən üstün deyibdir: Bu hədis (sənəd baxımından) təvatür həddindədir. Hakim Həskani şəvahidüt- tənzildə (١, ١۵٢) belə yazır: Bu, o "mənzilət" hədisidir ki, bizim şeyximiz Əbuhazim onun barəsində deyir: Onu beşmin sənədlə yazmışam. Siyuti Dürrül- mənsur kitabında (٣- ٢۶۶), ibn Əsakir Tarixi Dəməşq kitabında (١, ٣٠٧- ٣٣۶) və ibn Həcər Əl- isabə kitabında (٢- ٩٠۵) Səd ibn əbu Vüqqasdan nəql ediblər: Əli ibn əbu Talib Allahın rəsulu ilə birlikdə Mədinədən çıxdılar. Həccətül- vidaya yetişən zaman Peyğəmbər (s) Təbuka gedirdi. O, ağladı və Peyğəmbərə (s) belə dedi: Məni qadınların və uşaqların arasında qoyub Təbuka (Təbuk döyüşünə) gedirsiniz?" Peyğəmbər (s) buyurdu: "Razı deyilsənmi ki, sənin mənə nisbət olan mövqeyin Harunun Musaya olan mövqeyi kimi olsun, bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur?!" Həmçinin bax: Kənzül- ümmal, ١٣- ١٧١- ٣۶۵١٧, Məcməüz- zəvaid, ٩- ١١٠

## PEYĞƏMBƏRLƏ (S) BİR VÜCUD.۲۸

səh:۴۷

عن ابن عباس: قال رسول الله |:

علی منّی بمنزله رأسی من بدنی.

(İbn Abbasdan: Allahın rəsulu (s) buyurdu: Əli mənim cismimin başı misalındadır.(۱)

İzah: Əllamə Mənavi bu hədisin izahında yazır: Bu söz onların şiddətlə və möhkəm bir-birinə bağlanmlaraını bəyan edir.

səh:۴۸

---

۱- [۱] . Əl- firdövs, ۳: ۶۲- ۴۱۷۴, Feyzul- qədir, ۵۵ ۸۶, Zəhrül- firdövs, ۲: ۳۱۶, Mənaqibi Xarəzmi, ۱۴۴- ۶۷ və ۱۴۸- ۱۷۴, Əlmənaqib ibn məğazili, ۹۲- ۱۳۵, Əlcamiüssəğir, Siyuti, ۲, səh ۱۷۷- ۵۵۹۶, Kənzül- ümmal, ۱: ۶۰۳- ۳۲۹۱۴.

## SÜBH ULDUZU KİMİ PARILDAYIR.۲۹

عن أنس: قال رسول الله |:

على بن أبى طالب يزهر فى الجنه ككوكب الصبح لأهل الدنيا.

:Ənəsdən nəql edilibdir ki, Allahın rəsulu buyurdu

(Əli ibn Əbutalib cənnətdə dünya əhlinə parıldayan sübh ulduzu kimi parıldayır.(۱)

səh:۴۹

---

Əl- firdövs, ۶۳- ۴۱۷۸, Feyzül qədir, ۵۵۹۹, Zəhrül firdövs, ۲: ۳۱۵, Əlcamiüs- səğir, . [۱] -۱ .Siyuti, hədis ۵۵۹۹

## ƏLİ (ə) ALLAHIN ƏFV QAPISI.۳۰

عن ابن عباس: قال رسول الله |:

عليّ بن أبى طالب باب حطه، من دخل منه كان مؤمناً، و من خرج منه كان كافراً.

:İbn Abbasdan nəql olunur: Allahın rəsulu (s) buyurdu

Əli ibn Əbutalib Bəni İsrailin hittə qapısıdır. Hər kəs o qapıdan daxil olarsa mömin, xaric (olarsa kafirdir.(۱)

hittə" sözü Qurani kərimdə iki dəfə gəlmişdir: Onun biri Bəqərə surəsinin" "حطه" :İzah ۶۸- ci ayəsində, digəri isə Əraf surəsinin ۱۶۱- ci ayəsində, hər ikisi Bəni İsrailin (İsrail övladları) barəsindədir "hittə" qapısı o qapı idi ki, İsrail övladları o qapıdan girərkən amanda idilər. Bəlkə də hədisdə gələn bu oxşarlıq buna xatirdir ki, o qapı Allahın və onun qanunlartının müqabilində təvazökarlıq göstərmək və itaət etmək qapısı olduğu Ondan xaric ola "«خرج منـــه»" .kimi, Əliyə (ə) iman gətirib ona tabe olmaq da belədir sözünün mənası

(Onun əleyhinə çıxmaq deməkdir. (Feyzül- qədir, cild ۴, səh ۳۵۴ " «خرج عليه»"

səh:۵۰

---

Əl- fördövs, ۳: ۶۴- ۴۱۷۹, Feyzül qədir, ۵۵۹۹, Kənzül- ümmal, ۳۲۹۱۰, Zəhrül qədir ۲: . [۱] -۱ ۳۱۵, Cameüs- səğir, ۲: ۹۶

## CƏHƏNNƏMİ BÖLƏN.۳۱

عن حذيفه: قال رسول الله |:

علىّ قسيم النار.

:Hüzeyfədən rəvayət olubdur ki, Peyğəmbər (s) buyurdu

(Əli cəhənnəmi böləndir (yəni cəhənnəm əhlini müəyyənləşdirəndir).(۱)

səh:۵۱

---

Əl- firdövs, ۳: ۶۴- ۴۱۸-, Təbəqatül- hənabilə, ۱: ۳۲, Tarixi Dəməşq, ۲: ۲۵۳- ۷۷۵ Əliləli . [۱] -۱ varidə kitabında (۶: ۲۷۳- ۱۱۳۲) Əbuzərdən belə rəvayət olubdur ki, Rəsuli əkrəm (s) buyurdu: "Əli cəhənnəm odunu böləndir. Dostlarını cənnətə, düşmənlərini cəhənnəmə göndərəcəkdir." Məhəmməd ibn Mənzur Tusi Təbəqatul- hənabilə kitabında (۱: ۳۲۰- ۴۴۸) belə deyir: Əhməd ibn Hənbəlin yanında idim. Bir şəxs (kişi) ona dedi: Ey Əba əbdillah! Əlinin bu "Mən cəhənnəm odunun təqsimçisiyəm." Kəlamının barəsində rəyin nədir? Əhməd cavab verdi: Bu hədisin nə müşkülü ola bilər. Məgər bizim üçün Peyğəmbərdən (s) rəvayət olmayıbdır ki, Əliyə buyurdu: "Səni mömindən başqası sevməz və münafiqdən qeyrisi səninlə düşmənçilik etməz." Dedim: Bəli. Dedi: Möminin yeri haradadır? Dedim: Cənnətdə. Dedi: Münafiqin yeri haradadır? Dedim: .Cəhənnəmdə. Dedi: Buradan məlum olur ki, Əli cəhənnəm odunun təqsimçisidir

## CƏNNƏTİN BİRİNCİ DƏSTƏSİ.٣٢

عن علی× قال: أخبرنی رسول الله|:

ان أول من يدخل الجنه أنا وفاطمه والحسن والحسين.

فقلت: يا رسول الله| فمحبونا؟ قال: من ورائکم.

Əlidən (ə) nəql olubdur ki, o buyurdu: Allahın Peyğəmbəri (s) mənə xəbər verdi ki, cənnətə daxil olan birinci dəstə mən (Əli), Fatimə, Həsən və Hüseyn olacaqdır.

Soruşdum: Bəs bizi sevənlər necə?

Buyurdu: Onlar sizin arxanızca cənnətə daxil olacaqlar.(١)

səh:٥٢

---

١- [١] . ٣٧١٣ -٦٣٩ :١٢ ,Kənzül- ümmal.

## İLAHİ ! ONU SEV.۳۳

عن أنس بن مالك اهدى لرسول الله | طير فقال:

اللهمَّ ائتنى برجـل يحبّه الله ويحبّه رسوله، قـال أنس: فـأتى على فقرع الباب فقلت: إنَّ رسول الله | مشـغول وكنت اُحبّ أن يكون من الأنصـار ثم، إنّ عليّاً فعل مثل ذلك، ثم أتى الثالثه، فقال رسول الله |: يا أنس أدخله فقـد عَنَيْتُه فلمّا أقبل قال: اللهمَّ وال اللهمَّ وال.

Ənəs ibn Malikdən rəvayət edilibdir: Allahın Peyğəmbəri (s) üçün quş kababı gətirdilər, :O həzrət buyurdu

İlahi! Elə bir şəxsi yetir ki, Allah onu sevir və onun rəsulu onu sevir. (Yetir ki,) bu quşu .onunla birlikdə yeyək

Ənəs deyir: Birdənbirə Əli Peyğəmbərin (s) yanına daxil olmaq üçün qapını döydü. Dedim: Allahın rəsulu (s) məşğuldur və istəyirdim ki, daxil olan şəxs Ənsardan (Mədinəlilərdən) olsun. Amma çox çəkmədi ki, Əli yenə də qapını döydü, üçüncü dəfə .yenidən qapını döydü

Bu zaman Peyğəmbər (s) buyurdu: "Qapnı aç, mən dua edərkən məqsədim o idi." Elə ki, Əli Peyğəmbərin yanına gəldi, Peyğəmbər dedi: "İlahi! Onu sev, İlahi! Sev onu.(۱)

səh:۵۳

---

Əsədül- ğabə, ۴: ۳۰, Əlbidayə vənnəhayə, ۷: ۳۵۴ və ۳۸۸, Əl- iləlül-mütənahiyə, ۱: . [۱] -۱ ۳۲۳- ۳۶۷, ۲۳۴- ۷۷۳ və ۳۷۵, ۲۳۶- ۳۷۶ və ۳۷۷, Tarixi Dəməşq, ۲- ۱۳۱- ۶۳۹ Xarəzmi, Məqtəlül-Hüseyn (ə) kitabında (səh: ۴۶) Yazır: Hafiz ibn Mərduyə bu hədisi yüz igirmi sənədlə rəvayət edibdir. Əbu Əbdullah Hafiz deyir: Baxmayaraq ki, Müslim və Buxari "Teyr" hədisini öz kitabında gətirməyiblər, amma onun sənədi səhihdir və düzgün məlumat .istəyirsinizsə bu zəmində "Ələbəqat" kitabına müraciət edin

## TƏQVALILARIN RƏHBƏRİ.۳۴

عن عبدالله بن حكيم الجهنى: قال رسول الله |:

إنَّ الله عزوجل أوحى إلىّ فى على ثلاثه أشياء ليله أسرى: إنّه سيّد المؤمنين، وإمام المتقين وقائد الغرّ المحجّلين.

:Abdullah ibn Həkim Cəhənidən: Allahın rəsulu (s) buyurdu

Allah, merac gecəsi Əlinin barəsində üç mətləbi buyurdu: O möminlərin ağası və sərvəri, təqvalıların rəhbəri və üzü ağların (qiyamət günü xoşbəxtlərinin) rəhbəridir.(۱)



---

Əlmöcəmüs- səğir, Təbərani, ۲: ۸۸, Kənzül- ümmalda gəlibdir: Allahın rəsulu (s) . [۱] -۱ Əli (ə)- a buyurdu: "Müsəlmanların ağasına və təqvalıların imamına əhsən." Əbu Nəim İsfəhani hilyətül- övliya kitabında (۱: ۶۳) Ənəsdən belə rəvayət edir ki, Allahın rəsulu (s) buyurdu: "Ənəs! Dəstəmaz almaq üçün mənə su gətir." Sonra qalxıb iki rəkət namaz qıldıqdan sonra belə buyurdu: "Ey Ənəs! İndi bu qapıdan daxil olacaq ilk şəxs möminlərin əmiri, müsəlmanların ağası, üzü ağların rəhbəri və vəsilərin sonuncusudur." Ənəs deyir: Ərz etdim: İlahi! Nə olaydı bu şəxs Ənsardan (Mədinəlilərdən) olaydı və mən bu arzu və istəyi Peyğəmbərdən (s) gizlədirdim. O zaman Əli gəldi. Peyğəmbər (s) soruşdu: "Ənəs! o kimdir?" Dedim: "Əli". Peyğəmbər şadlıqla qalxdı və Əlini bağrına basdı, sonra öz üzünün tərini Əlinin üzünə və Əlinin üzünün tərini öz üzünə sürtdü. Əli ərz etdi! "Ey Allahın rəsulu! Bundan qabaq heç vaxt bu işi sizdən görməmişəm (bunun sirri nədir?!) Həzrət buyurdu: "Nə üçün belə etməyim, halbuki, sən mənim öhdəmdə olanları əda edəcəksən və mənim sədamı xalqa çatdıracaqsan. Məndən sonra qarşıya çıxan ixtilaflarda haqqı onlara bəyan edəcəksən." İbn Əsakir Tarixi Dəməşq kitabında (۲: ۴۸۶- ۱۰۱۴) belə deyir: Peyğəmbər (s) buyurdu: Əlinin barəsində mənə üç şey vəhy olubdur: O, müsəlmanların ağası və seyyididir və ... həmçinin bu hədis müstədrəkdə nəql olubdur, ۳: ۱۲۷. Hakim yazır: Bu .hədis səhih sənədlərə malikdir, amma Müslim və Buxari onu nəql etməyiblər

## ƏLİ (ə) CƏNNƏTDƏ.۳۵

səh:۵۵

:قال رسول الله|

فاطمه وعلی والحسن والحسین فی حظیره القدس فی قبّه بیضاء سقفها عرش الرحمان عزّ و جلّ.

Allahın rəsulu (s) buyurdu: Fatimə, Əli, Həsən və Hüseyn üçün (cənnətdə) qüds (məkanında tavanı Allahın ərşinə çatan bir günbəz altında yer ayrılmışdır.(١)

səh:۵۶

---

Əl- firdövs, ۳- ۴۲۸۴. Ömərdən, Siyuti Əlləali kitanbında bu hədis üçün başqa bir . [۱] -۱ sənəd də nəql etmişdir. Bu sənəd əhli sünnənin tərəfindən zəif sayılmış sənədlərdən başqa bir sənəddir. Xatırladırıq ki, onların o sənədləri zəif saymaqları buna xatirdir ki, onun ravisi əhli- beyt sevənlərdəndir. Təbii ki, bu dəlil qəbul olunası dəlil deyil. Təbərani onu ibn Musadan nəql edir ki, o, dedi: Allahın rəsulu buyurdu: "Mən, Əli, Fatimə, Həsən və Hüseyn qiyamət günü ərşin altında olan bir günbəz altında olacağıq." O, deyir: Bunun sənədi də işkalsız deyil, ona görə də təkcə başqa sənədlərə .kömək edə bilər

## ALLAHIN HİKMƏTİNDƏN ƏLİNİN (ə) PAYI.۳۶

عن ابن مسعود: قال رسول الله |:

قُسِّمت الحكمه عشره أجزاءٍ فأعطى عليّ تسعه وأعطى الناس جزءاً واحداً.

İbn Məsuddan: Allahın rəsulu (s) buyurdu: Hikmət on yerə bölünübdür. Onun doqquzu Əliyə məxsus edilib və qalan bir hissəsi isə digərlərinə nəsib olubdur.(۱)

səh:۵۷

---

۱-[۱]. Əl- firdövs, ۳: ۲۲۷- ۴۶۶۶. Əl- həliyyə, əbu Nəim, ۱: ۶۴- ۶۵, Əlcamiul- kəbir, ۲: ۵۵۰ .

## ƏLİ VƏ QURAN.۳۷

عن أم سلمه، قال رسول الله |:

عليٌّ مع القرآن، والقرآن مع عليّ، لايفترقان حتّى يردا عليّ الحوض.

Ümmü Sələmədən nəql olunubdur ki, Peyğəmbər (s) buyurdu: Əli Quranla və Quran Əli ilədir. Qiyamət günü kövsər hovuzunun yanında mənim yanıma gələnə qədər bir-birindən ayrılmayacaqlar.(۱)

səh:۵۸

---

۱- [۱] . Əl- firdövs, ۳: ۲۳۰- ۴۶۷۸, Mənaqibi seyyüdəna Əli, ۳۸, Məcməür- rəvaid, ۹: ۱۳۴, Mənaqibi Xarəzmi, ۱۷۶- ۲۱۴, Tozihüd dəlail, ۲۰۹, Əl- müstədrək Ələs- səhiheyn, ۳: ۱۲۴, Kənzül- ümmal, ۱۱: ۶۰۳- ۳۲۹۱۲, Əlcamiüs- səğir, hədis ۵۵۹۴, Məcməüz- zəvaid, ۹: ۱۳۴, bab: Əlhəqq məə Əli əleyhissalam.

## (İMAM VƏ NİFAQIN MEYARI (ÖLÇÜSÜ.۳۸

عن أبی ذر: قال رسول الله |:

علیّ بابُ علمی، ومبیّن لأُمّتی ما أرسلت به من بعدی. حبّه إیمانٌ، وبغضه نفاق، والنظر الیه رأفه ومودّته عباده.

:Əbuzərdən: Allahın rəsulu (s) buyurdu

Əli mənim elmimin qapısıdır, mənim risalətimin (Allahın dininin) məndən sonra mənim ümmətimə təfsir edəni (açıqlayanı və bəyan edəni) olacaqdır. Onun dostluğu iman, düşmənçiliyi isə nifaqdır (münafiqlik və iki üzlülük). Məhəbbətlə onun üzünə baxmaq (ibadətdir.(۱

səh:۵۹

---

Əl- firdövs, ۳: ۶۵- ۴۱۸, Zəhrül firdövs, ۲: ۳۱۶- ۳۱۷, Kənzül- ümmal, ۱۲: ۲۱۲ və ۶: ۱۵۶, . [۱] -۱ Əlqövlül cəliyyə, hədis ۳۸, və sair. Buna müvafiq hədislər də, Müstədrək, ۳۶, Künuzul- .həqaiq, ۱۸۸ və Hilyətul- övliya, ۱: ۶۳- də nəql olunmuşdur

## PEYĞƏMBƏR (S) VƏ ƏLİ (ə) BİR KÖKDƏNDİRLƏR.۳۹

عن سلمان: قال رسول الله |:

كنتُ أنا وعليّ نوراً بين يدى الله عزّوجلّ معلّقاً، يسبّح الله ذلك النور ويقدّسه قبل أن يخلق الله آدم بأربعه(عشر) ألف عام، فلمّا خلق الله عزّوجلّ آدم ركب ذلك النور فى صلبه فلم نزل فى شىءٍ واحد حتّى افترقنا فى صلب عبد المطلب فجزء أنا و جزء على.

Salmandan: Allahın rəsulu (s) buyurdu: Mən və Əli Allah yanında asılı bir nur idik. O nur .((Allah Adəmi yaratmadan on dörd min il öncə

Allahı təsbih və təqdis edərdi (təsbih, və təqdis, yəni, sübhanəllah demək, Allahı hər eyb və nöqsandan uzaq bilmək və buna iqrar etmək.) Elə ki, Adəmi yaratdı, o nuru onun sülbündə (belində) yerləşdirdi. Biz daimi olaraq bir yerdə idik, (yəni birlikdə Peyğəmbərlər və saleh insanlar belinə köçürülürdük). Əbdül- müttəlibin belində bir-birimizdən ayırdıq. O nurun bir hissəsi mən, o biri hissəsi isə Əli oldu (mən nübüvvət və (Peyğəmbərliklə zühur etdim, Əli isə imamət və xəlifəliklə).(۱)

səh:۶۰

---

Əl firdövs, ۳: ۲۸۳- ۴۸۵۱, Mənaqibi seyyiduna Əli, ۲۱, Yənabiül- məvəddət, ۱۱۸, . [۱] -۱ Mənaqibi Xərəzim, ۱۴۵- ۱۷۰, Tarixi Dəməşq, ۱: ۱۵۱- ۱۸۶, Kifayətüt- talib, ۳۱۱, bab ۸۷, Əl .Mənaqib ibn Məazim, ۷۸- ۱۳۰- ۱۳۱

## ƏLİNİN (ə) ƏMİRƏL MÖMİNİN LƏQƏBİ İLƏ ADLANDIRILMASI.۴۰

عن حذیفه: قال رسول الله |:

لو علم الناس متى سـمّى على أمير المؤمنين ما أنكروا فضـله، سمى أمير المؤمنين وآدم بين الروح والجسد. قال الله عزّوجل: «وإذ أخذ ربّك من بنى آدم من ظهورهم ذريّتهم وأشهدهم على أنفسهم ألست بربّكم» قالت الملائكه: بلى، فقال تبارك وتعالى: أنا ربّكم ومحّمد نبيّكم وعلى أميركم.

:Hüzeyfədən belə nəql olunubdur ki, Peyğəmbər (s) buyurdu

Əgər camaat Əlinin hansı zamandan Əmirəlmöminin adıyla adlandırılmasını .bilsəydilər, onun fəzilətini və üstünlüyünü (heç vaxt) inkar etməzdilər

".Sonra əlavə etdi: "O, Adəmin cəsədinə ruh verilən zaman Əmirəlmöminin adlandırıldı

Allah buyurdu: "O zaman ki, sənin Pərvərdigarın Adəm övladlarının bellərindən əhd və (:peyman adlı və onları özlərinə şahid tutdu (və buyurdu

(Mən sizin Pərvərdiharınız deyiləmmi?"(۱

.Mələklər dedilər: Bəli

Sonra uca tanrı buyurdu: "Mən sizin Allahınız, Məhəmməd peyğəmbərimiz və Əli sizin (əmirinizdir."(۲



---

.Əraf surəsi, ayə ۱۷۲ . [۱]-۱

Əl- firdövs, ۳: ۳۵۴- ۵-۶۶ . [۲]-۲

## ƏLİNİN (ə) İMANININ BÜTÜN İMANLARA ÜSTÜNLÜYÜ.۴۱

عن عمر بن الخطاب: قال رسول الله |:

لو أنَّ السماوات والأرض وضعتا فی كفّهٍ وایمانُ علیّ فی كفّه لرجح ایمانُ علیّ.

Ömər ibn Xəttabdan nəql olunur ki, Peyğəmbər (s) buyurdu: Əgər göyləri və yeri tərəzinin bir gözünə və Əlinin imanını onun o biri gözünə qoyalar, şübhəsiz Əlinin imanı (ondan ağır olacaqdır.(۱)

:İzah: Əlinin (ə) imanı elə bir həddə idi ki, özü buyurdu

«لو كشف الغطاءُ ما ازددت یقیناً»

Əgər pərdələr (qeyb pərdələri) gözümün qarşısından götürülə, heç də mənim iman və .yəqinimə bir şey əlavə olmaz

səh:۶۲

---

.Əl- firdövs, ۳: ۳۶۳- ۵۱۰۰, Kənzül- ümmal, ۳۲۹۹۳, Mənaqibi Xarəzmi, ۱۳۱- ۱۴۶ . [۱] -۱

## ƏMİRƏL MÖMİNİNİN VİLAYƏTİ OLMADAN HEÇ BİR İBADƏTİN FAYDASI YOXDUR.۴۲

عن علی بن أبی طالب×: قال رسول الله|:

لو أنَّ عبداً عَبَدالله مثل ما قام نوح فی قومه، وکان له مثل اُحد ذهباً فأنفقه فی سبیل الله، ومُدَّ فی عمره حتّی یحجّ ألف عام علی قدمیه، ثم قتل بین الصفا والمروه مظلوماً، ثمَّ لم یوالک یا علی، لم یشمَّ رائحه الجنّه ولم یدخلها.

:Əli ibn Əbu Talibdən (ə): Allahın rəsulu (s) buyurdu

Əgər bir bəndənin Nuh Peyğəmbərin öz qövmü arasında qiyam etdiyi müddət qədər ömrü ola (doqquz yüz əlli il) və Allaha ibadət edə. Ühud dağı qədər qızılı ola və onu Allah yolunda infaq edə, ömrü o qədər uzün ola ki, min il piyada həccə gedə və sonra (ən müqəddəs məkanda) səfa və mərvə arasında nahaqq öldürülə, amma sənin (Əlinin) vilayətini qəbul etməyə, behişt iyi onun burnuna yetişməz və behiştə daxil (olmaz.(۱) (۲)



---

Əl- firdövs, ۳: ۳۶۴- ۵۱۰۳, Tənzihiş- şəriət, ۱, səh ۳۹۸ . [۱]-۱

Mənaqibi Xarəzmi, ۶۷- ۴۰ . [۲]-۲

## BƏRAƏTİ ÇATDIRAN.۴۳

عن أبی سعید الخدری: قال رسول الله | (فی قصه إعلان البراءه):

یا علی، إنّه لا یؤدی عنّی إلّا أنا أو أنت.

:Əbu Səid Xidridən: Peyğəmbəri əkrəm (s) buyurdu

Ey Əli! Mənim boynumda olan vəzifəni məndən və səndən başqa heç bir kimsə yerinə (yetirə bilməz.(۱)

İzah: İslam Peyğəmbəri (s) hicrətin ۹- cu ilində müşriklərin Məscidul- hərama daxil olmağının qarşısını almaq üçün və onlarla bağladığı bütün əhd- peymanları götürmək üçün Əbubəkrin Bəraət surəsini əvvəlində gələn on altı ayə ilə Məkkəyə göndərdi ki, həcc mövsümündə bu ayələri orada toplaşanlar üçün oxusun. Əbubəkr yolun yarısında idi ki, Cəbrail, Peyğəmbərə (s) nazil oldu və dedi: "Allahın buyurur ki, bu ayələri ya sən özün, ya da sənin əhli- beytindən olan başqa bir kişi iblağ etməlidir ."((çatdırmalıdır



---

۱- [۱] . Dürrül- mənsur, ۳: ۲۰۹- ۲۱۰, Kənzül- ümmal, ۲,: ۴۲۲, Fəthülqədir, ۲: ۳۳۴, Fəzailüs- .səhabə, Əhməd ibn Hənbəl, ۲: ۵۶۲, hədis ۹۶۴

## ƏLİNİN (ə) VİLAYƏTİNİ QƏBUL ETMƏYƏ PEYĞƏMBƏRİN (S) TAPŞIRIĞI.۴۴

عن عمار بن ياسر: قال رسول الله |:

أوصى من آمن بى وصدّقنى بولايه على بن أبى طالب، فمن تولاه فقد تولانى ومن تولانى فقد تولى الله عزّوجلّ، ومن أحبّه فقد أحبّنى، ومن أحبّنى فقد أحبّ الله ــ تعالى ــ ومن أبغضه فقد أبغضنى ومن أبغضنى فقد أبغض الله عزّوجلّ.

:Əmmar ibn Yasirdən: Peyğəmbər (s) buyurdu

Mənə iman gətirənlərə və məni təsdiq edənlərə tövsiyə edirəm ki, Əli ibn Əbutalibin vilayətini (imamət və xilafətini) qəbul etsinlər. Onun vilayətini qəbul edənlər həqiqətdə mənim vilayətimi qəbul etmişdir. Onu sevənlər həqiqətdə məni sevmişdir. Məni sevənlər də həqiqətdə Allahı sevmişdir. Hər kəs onunla düşmənçilik edə, həqiqətdə mənimlə düşməndir, hər kəs mənimlə düşmənçilik edə həqiqətdə Allahın (düşmənidir.(۱



---

۱- [۱] . Əl- firdövs, ۱: ۴۲۹- ۱۷۵۱, Əmali Şəcəri, ۱: ۱۳۴, Kənzül- ümmal, ۳۲۹۵۳, Məcməüz- zəvaid, Heysəmi, ۹: ۱۰۸.

## ƏLİ FATİMƏYƏ LAYİQ ƏR.۴۵

عن امّ سلمه: قال رسول الله |:

لولم يخلق علىّ ماكان لفاطمه كفوءٌ.

:Ümmü Sələmədən: Peyğəmbər (s) buyurdu

Əgər Allah Əlini yaratmasaydı Fatiməyə layiq bir kimsə (onunla həyat qurmaq üçün) (olmazdı.(۱)

İzah: Şübhəsiz, Həzrət Peyğəmbərin (s) kəlamında gəlmiş layiqlik, ismət, elm, dünya və axirətə olan baxış, Allaha yaxşılıq (və fəna məqamı) və Allahın müqəddəs sirlərinə və onun adlarına və sifətlərinə agahlıq baxımındandır, qohumluq və s. kimi amillər .baxımından yox



---

Əl- firdövs, ۳: ۳۷۳, ۵۱۳۰ İbn Mərdiyə öz sənədləri ilə Ümmü Əyməndən nəql . [۱] -۱ edibdir ki, Peyğəmbəri əkrəm (s) (Əli və Fatimənin toyunun səhəri) ona buyurdu: Ey Ümmi Əymən! Qardaşıma de gəlsin." Ümmi Əymən dedi: Məqsədiniz kimdir? Buyurdu? "Əli". Ümmi Əymən təəccüblə soruşdu: Əli sizin necə qardaşınız ola bilər, halbuki, siz öz qızınızı onunla evləndirmisiniz?! Həzrət buyurdu: "And olsun Allaha, Fatiməni elə bir şəxslə evləndirmişəm ki, həm bu dünyada və həm axirətdə ən şərəfli şəxsdir." Mənaqibi ibni Mərduyə, ۱۰۱- ۱۰۴, bu hədisə yaxın bir ibarəni Əl müstədrək ələs- (səhiheyndə də müşahidə etmək olar. (۳: ۱۵۹

## ƏGƏR HAMININ QƏLBİNDƏ ƏLİYƏ (ə) MƏHƏBƏTİ OLSAYDI.۴۶

عن ابن عباس: قال رسول الله |:

«لو اجتمع الناس على حبّ على بن أبى طالب لما خلق الله عزّوجلّ النّار.»

:İbn Abbasdan: Peyğəmbər (s) buyurdu

(Əgər hamı Əli məhəbbəti ilə yaşasaydılar, Allah taala cəhənnəmi yaratmazdı.(۱)

İzah: Əli ibn İsa İrbili bu rəvayətin açıqlamasında yazır: Mətləbin sirri budur ki, Əliyə məhəbbət, Peyğəmbərə məhəbbət göstərməyə bağlıdır və Peyğəmbəri sevmək Allahı sevməyə bağlıdır, tövhidə inanmağa, ilahi əmr və nəhylərə itaət etməyə, bütün şəri vəzifələri yerinə yetirməyə və Quranın və onun hökmlərinə və Peyğəmbərin sünnəsinə əməl etməyə bağlıdır. Məlumdur ki, camaatın hamısı bu müqəddəs fitrətə əməl etsəydilər Allah cəhənnəmi yaratmazdı. Kəşful- ğümmə, ۱, səh ۱۰۰

Başqa bir alim bu hədis barəsində deyir: Bu şərif hədisdən belə düşünülür ki, əzab və .atəş təkcə Əlinin (ə) müxalifləri (və onun düşmənləri üçün) yaradılmışdır

səh:۶۷

---

Əl- firdövs, ۳- ۳۷۳- ۵۱۳۵ . [۱] -۱

## ƏLİ (ə) HAQQ VƏ BATİLİ AYIRAN.۴۷

عن أبی ذر و سلمان: أخذ النبی | بید علیّ فقال:

إنَّ هـذا أوّل من آمن بی، وهـذا أوّل من یصافحنی یوم القیامه، و هـذا الصـدّیق الأکبر، وهـذا فاروق هـذه الأُمّه یفرق بین الحقّ والباطل، وهذا یعسوب المؤمنین، والمال یعسوب الظالمین.

Əbuzər və Salmandan belə nəql olunur ki, Peyğəmbər (s) Əlinin (ə) əlini tutdu və buyurdu:

Bu kişi mənim ümmətim arasında mənə birinci iman gətirəndir. Qiyamət günü mənimlə birinci əl görüşən şəxsdir. O Siddiqi əkbərdir (böyük düzdanışan). Ümmətin Fariqidir (yəni haqq və batili bir- birindən ayırandır). Bu möminlərin rəhbəridir. Amma mal- dövlət zalımların padşahıdır.(۱)



---

۱- [۱] . Məcməüz- zəvaid, Heysəmi, ۹- ۱۲, Lisanül- mizan, ۲: ۴۱۴, Əl mənaqib, İbn Məğazili, ۶۵- ۹۳ öz sənədi ilə nəql edir ki, Allahın rəsulu (s) buyurdu: "Ey Əli! Sən müsəlmanların ağası, pərhizkarların rəhbəri, şəxsiyyətli insanların imamı və dinin əmirisən." Tarixi Dəməşq, hədis ۱۱۹

## ƏLİNİN (ə) MÜBARİZƏSİNİN DƏYƏRİ.۴۸

عن معاويه بن حيده: قال رسول الله |:

لَمبارزه علىّ بن أبى طالب لعمروبن عبدود يوم الخندق أفضل من أعمال أمّتى إلى يوم القيامه.

:Müaviyə ibn Heydədən: Allahın rəsulu (s) buyurdu

Şübhəsiz, Əli ibn Əbu Talibin Əmr ibn Əbdüvədlə (Əhzab və) Xəndək döyüşündəki (mübarizəsi qiyamət gününə qədər ümmətinin əməllərindən fəzilətli və üstündür.(۱)



---

۱- [۱] . Əl- firdövs, ۳: ۴۵۵- ۵۴۰۶, Əl- müstədrək ələs- səhiheyn, ۳: ۱۹۴.

## ƏLİNİN (ə) DÜŞMƏNİ MÜSƏLMAN DEYİL.۴۹

عن معاويه بن حيده: قال رسول الله |:

من مات و فی قلبه بغض علی بن أبی طالب فَلْيَمُتْ يهودياً أو نصرانيّاً.

:Müaviyə ibn Heydədən: Peyğəmbər (s) buyurdu

Hər kəs Əli kini və düşmənçiliyi qəlbində olarkən ölə, yəhudi ya nəsrani dinində olaraq (ölmüşdür.(۱)

səh:۷۰

---

Əl- firdövs, ۳: ۵۰۸- ۵۵۷۹ və ۵: ۳۲۱- ۸۳۱۶ Cabir Rəsuli əkrəmdən (s) rəvayət edibdir . [۱] -۱ ki, Həzrət buyurdu: "Ey Əli! Ümmətim səninlə düşmənçilik edərsə, Allah onları başı üstə oda atar." Tənzihül şəriət, ۳۶۰, Əlləalil- məsnuə, ۱- ۱۹۰ Əl- firdövs, ۵: ۳۳۰- ۸۳۳۹ və Zəhrül firdövs, ۴: ۳۱۲ kitablarında sənədli şəkildə Bəhz ibni Həkimdən nəql olunubdur ki, o, Allahın rəsulundan (s) rəvayət edibdir ki, o həzrət belə buyurdu: "Ey Əli! Narahat deyiləm ki, hər kəs səninlə düşmən olan halda dünyadan gedən zaman yəhudi ya nəsrani kimi ölsün." Bu həsdisi ibn Məğazili Əlmənaqib kitabında (۵۰- ۷۴) Müaviyə ibn Heydədən nəql edibdir. İbn Harundan nəql olunubdur: İbn Ömərlə oturmuşdum ki, Nafe ibn Ərzəq bizə yaxınlaşdı, ibn Ömərin başı üstündə durdu, and içdi və dedi: And olsun Allaha ki, Əlinin kinini qəlbimdə əkmişəm. Ravi deyir: İbn Ömər başını qaldırdı və dedi: Allah düşmənin olsun! Elə bir şəxslə düşmənçilik edirsən ki, onun təkcə fəziləti dünya və dünyadakılardan üstündür? Əl- müsənnif, İbn əbu Şeybə, ۶: ۱۶۰, Şəvahidüt- .tənzil, ۱: ۲۰- ۱۲

## ƏLİYƏ (ə) NARƏVA SÖZ DEMƏYİN CƏZASI.۵۰

عن ابن عباس: قال رسول الله |:

مَن سبَّ علياً فقد سبّنى، ومن سبّنى فقد سبَّ الله، ومن سبَّ الله أدخله الله نار جهنّم وله عذاب مقيم.

İbn Abbasdan: Peyğmbər (ə) buyurdu: Hər kəs Əlini (ə) söyə, məni sömüşdür və hər kəs məni söyə, həqiqətdə Allahı söyübdür və Allaha nalayiq söz deyən Allahın əzabına düçar olub cəhənnəm odunda yanacaqdır.(۱)



---

۱- [۱] . Əl- firdövs, ۳: ۵۴۲- ۵۶۸۹, Feyzül qədir, ۸۷۳۶, Müsnədi Əhməd ibn Hənbəl, ۵: ۳۲۳, Əl müstədrək Ələs- səhiheyn, ۳: ۱۳۰, Məcməüz- zəvaid, ۹: ۱۳۰, Əl cameüs- səğir, hədis ۸۷۳۶, Xarəzmi Əl mənaqib kitabında (۱۳۶-۱۵۴) Səid ibn Ceybərdən nəql edir ki, o belə dedi: İbn Abbas bir dəstənin Əliyə nalayiq sözlər deməsindən xəbərdar oldu. Öz oğlu (Əli ibn Abdullaha) dedi: "Əlimdən tut və məni o dəstənin yanına apar." Oğlu onu onların yanına apardı və onların yanına yetişib dedi: "Sizin hansınız Allaha nalayiq sözlər deyirdi? " "Hamısı təəccüblə dedilər: Sübhanəllah! Hər kəs Allaha nalayiq deyə müşrikdir." Sonra soruşdu: "Sizin hansınız Allahın rəsuluna (s) nalayiq söz deyirdi?" Yenə dedilər: Bu nə sözdür?! Hər kəs Peyğəmbərə nalayiq deyə kafirdir. Sonra soruşdu: "Bəs sizin hansınız Əliyə söyüş verirdi?" Dedilər: Bunu demişik. İbn Abbas onlara dedi: Şahid olun! Allahın rəsulundan eşitdim ki, belə buyurdu: Hər kəs Əliyə nalayiq söz deyə, mənə deyibdir. Hər kəs mənə nalayiq deyə Allaha deyibdir və hər kəs Allaha nalayiq deyə odda məhv olacaqdır." Bu mətləbi Muhibbuddin Təbəri Ərriyazün- nəzirə (۳:۱۲۲) və müttəqi Hindi Kənzil ümmal (۱۱: ۶۰۲- ۳۲۹۰۳) kitablarında nəql edibdirlər.

## ƏLI (ə) PEYĞƏMBƏRİN (S) QARDAŞI.۵۱

عن جابر بن عبدالله: قال رسول الله |:

مكتوبٌ على باب الجنّه [لا ـ إلـه إلّا الله]، محمَّدٌ رسول الله، على بن أبى طالب أخو رسول الله قبل أن يخلق [الله] السماوات والأرض بألفى عام.

:Cabir ibn Abdullahdan: Peyğmbər (ə) buyurdu

Cənnətin qapısına yazılmışdı: (Allahdan başqa bir Allah yoxdur) Məhəmməd onun rəsuludur. Əli ibn Əbutalib, Allah yeri- göyü yaratmadan iki min il əvvəldən Allahın (rəsulunun qardaşıdır.(۱)

səh:۷۲

---

Əl- firdövs, ۴: ۱۲۳- ۳۸ və ۲: ۲۵۷- ۳۱۹۵, Kənzül- ümmal, ۳۶۴۳۵, Tozihid dəlail, ۲۰۸, . [۱] -۱ hilyətül övliya, ۷: ۲۵۱, Tarixi Bağdad, ۷- ۳۸۷ İbn Abbas: Rəsuli əkrəm (s) buyurdu: Meraca aparılan gecə müşahidə etdim ki, Behiştin qapısının başına yazılıbdır: Allahdan başqa Allah yoxdur, Məhəmməd onun elçisidir, Əli onun həbibidir. Həsən, Hüseyn və Fatimə onun seçdikləridir. Allahın lənəti onların düşmənlərinin haqqıdır." Tarixi Bağdad, ۱: ۲۰۹, Təhzibi Tarixi Dəməşq, ۴: ۳۲۲, Mənaqibi Xarəzmi, ۳۰۲- ۲۹۷. Məcməüz zəvaid kitabında belə gəlibdir: Allahdan başqa bir Allah yoxdur, Məhəmməd onun elçisidir və Əli yaradılışdan ikimin il qabaqdan Peyğəmbərin qardaşıdır. ۹- ۱۱

## ƏLİ İXLAS SÜRƏSİ KİMİDİR.۵۲

عن حذيفه: قال رسول الله |:

مَثَل على بن أبى طالب فى الناس مثل«قل هو الله أحد» فى القرآن.

Hüzeyfədən: Peyğmbər (ə) buyurdu: Əlinin misalı mənim ümmətim arasında "Qul huvəllah" surəsi kimidir Quran (surələri) arasında.(۱)

səh:۷۳

---

۱- [۱] . ۶۳۱۷ -۱۳۴ :۹ ,Əl- firdövs

## ƏLİ (ə) IN ÜZÜNƏ BAXMAZ İBADƏTDİR.۵۳

عن عائشه وأبوبكر وعمر وعثمان وابن مسعود وثوبان وأبى ذر وجابر وأنس وعمران بن الحصين: قال رسول الله |:

النظر إلى وجه على عباده.

Ayişə, Əbubəkr, Ömər, Osman, İbn Məsud, Salman, Əbuzər, Cabir, Ənəs və İmran ibn Həsin belə rəvayət edirlər ki, bir gün İslam Peyğəmbəri buyurdu: Əlinin simasına (üzünə) baxmaq ibadətdir.(۱)

səh:۷۴

---

۱- [۱] . Əl- firdövs, ۴: ۲۹۴- ۶۸۶۵ və ۶۸۶۶, Ən nihayə, ibn Əsir, ۵: ۷۷, İbn Əsir bu kitabda hədisi belə tərcümə etmişdir: Hər zaman Əli camaatın arasına çıxardı, camaat təəccüblə deyərdi: Lailahə illəllah, nə gözəl nurludur! Lailahə illəllah, bu kişi nə qədər alim və düşüncəlidir, la ilahə illəllah, bu cavan nə qədər əziz və şəxsiyyətlidir, yəni nə qədər təqvalıdır. La ilahə illəllah, bu cavan nə qədər dilavərdir. Beləliklə o, səbəb olurdu ki, tövhid kəlməsi camaatın dilinə gəlsin. Bu hədisi ibn Mərduyə Siyutinin Əllə-alilməsnuə kitabına müvafiq olaraq nəql etmişdir. Hakim, Müstədrək kitabında (۳: ۱۴۱), Xarəzmi, Mənaqib kitabında (۳۶۱- ۶۷۳- ۳۷۵), İbn Məcazili Əlmənaqib kitabında (۲۱۱- ۲۵۴ və ۲۰۶- ۲۴۵) Siyuti, Tarixi xüləfa (۱۷۲), ibn Həcər Əlisabə kitabında (۴: ۴۰۳ Leyli Qəffarinin tərcümeyi halında), Əbu Nəim İsfəhani Əlhəliyyə kitabında (۲: ۱۸۲), İbn Kəsir Əlbidayə kitabında (۷:۳۶۸), Əs səvaiqdə (۱۰۸) nəql edibdir ki, səhabələrdən çoxları bunu nəql edib və o əsərlərdən qeydə alınmışdır və hətta onların ən mötəbəridir. Xarəzmi Məqtəlül Hüseyn (ə) kitabında (cild ۱ səh ۴۸) bu hədisi bir qurup səhabədən nəql etmişdir ki, onların adı burada qeyd olunur: Əli, Ömər, Amir ibn Səd, Səd ibn əbu Vüqqas, Ümmü Sələmə, Əbu Səid, İbn Abbas, Cabir, Əbu Hüreyrə, Cabir ibn Səmərə, Ceyş ibn Cünadə, Ənəs, Malik, Əbu Əyyub, Yəzid ibn əbu Əvfa, Əbu Rafe, Zeyd ibn Ərqəm, Bəra, Abdullah ibn əbu əvfa, Müaviyə ibn Əbusüfyan, Hüzeyfə ibn Üsəyd, Əbüt tüfeyl, Əsma binti Əmis, Fatimə binti Məhəmməd (s) və Fatimə binti Həmzə ibn Əbdül- Müttəlib. Gənci Şafei kifayətütalib kitabında (bab ۷۰, səh ۲۸۳) yazır: Həkim Neyşaburi nlardan bəzisi hətta bu nəqlin dənədini ۱۲ səhabəyə yetiriblər. Məcməüz zəvaid, ۹: ۱۱۹ Əlinin üzünə baxmaq babında. Bu kitabda müəllif Təliq ibn Məhəmməddən nəql edir: İmran

ibn Həsin diqqətlə Əlinin üzünə baxırdı. Bu barədə ondan sual oldu və o dedi: .Peyğəmbərdən eşitdim ki, Əlinin ruxsarına baxmaq ibadətdir

## İMAMLARIN ƏN ÜSTÜNÜ.۵۴

عن أنس بن مالك: قال رسول الله |:

هبط عليّ الملكان لم يهبطا منذ كانت الأرض، فبشرانى أنَّ الحسن والحسين سيّدا أهل الجنّه. فقلت: أبوهما خير منهما.

:Ənəs ibn Malikdən: Peyğəmbər (s) buyurdu

Mənim yanıma iki mələk nazil oldu ki, o iki mələk yer yaradılandan o günə kimi yerə nazil olmamışdılar. O iki mələk mənnə bəşarət verdilər ki, Həsən və Hüseyn cənnət əhlinin sərvəri və ağalarıdırlar. Mən əlavə etdim ataları onlardan daha üstündür.(۱)



---

۱- [۱] . Əl firdövs, ۴: ۳۴۳- ۶۹۹۳, Kənzül- ümmal, ۳۴۲۹۳, Zəhrül firdövs, ۴: ۱۴۳.

## CƏNNƏTƏ BURAXILIŞ İCAZƏSİ.۵۵

CƏNNƏTƏ BURAXILIŞ İCAZƏSİ.۵۵

عن علی×: قال رسول الله|:

إذا جمع الله الأولین والآخرین یوم القیامه ونصب الصراط علی جسر جهنّم ما جازها أحد حتّی کان معه براءه بولایه علی بن أبی طالب.

Əlidən (ə): Peyğmbər (ə) buyurdu: Allah qiyamət günü bütün insanları toplayan zaman və siratı cəhənnəm körpüsünün üzərinə qoyan zaman, Əbutalib oğlu Əlinin vilayəti vasitəsi ilə cəhənnəmdən qurtuluş sənədi olmayan heç bir kimsə onun üzərindən keçə bilməyəcək.(۱)

səh:۷۷

---

۱- [۱] . Cəvahirul mətalib fi mənaqibi Əli ibn əbu Talib (ə) ۱: ۸۸, Əxbari İsfəhan, Əbu Nəim İsfəhani, ۱: ۳۴۱. İbn Məğazili Əlmənaqib kitabında (۱۱۹- ۱۵۳) İbn Abbasdan rəvayət edibdir ki, Allahın rəsulu (s) buyurdu: "Qiyamət günü Əli (ə) kövsər hovzunun üstündə duracaqdır və heç bir şəxs Əli ibn əbu Talibdən izn məktubu almadan behiştə daxil olmayacaqdır." Həmçinin, o, hədisi səh. ۱۴۲ də Ənəsdən nəql etmişdir. Bu hədis üçün çoxlu sənədlər mövcuddur ki, Fəraidüssiməteyn kitabında (۱: ۲۸۹- ۲۲۸), Ər-riyazün nəzirə, (۲: ۱۲۲) və Zəxairül üqba, (səh ۷۱) kitabında müşahidə etmək olar.

## İSLAM Və ƏLİNİN (ə) İMANI.۵۶

عن عمر بن الخطاب: قال رسول الله |:

يا على، أنت أوّل المسلمين إسلاماً، وأنت أوّل المؤمنين.

:Ömər ibn Xəttabdan: Peyğmbər (ə) buyurdu

(Ey Əli! Sən islamı qəbul edən ən ilkin müsəlmansan və sən ən ilkin möminsən.(۱)

səh:۷۸

---

۱- [۱] . Əl- firdövs, ۵: ۳۱۵- ۸۲۹۹. İbn Əsakir, Həbbə ibn Cəvin Ərəbidən nəql edir: Əli ibn əbu Talibdən eştdim: "Mən Allahın rəsuluna iman gətirən (ya onunla namaz qılan) ilk şəxsəm." Tarixi Dəməşq, ۱: ۵۸- ۸۵. Bu hədisin məzmunu Təvatürlə sabit olubdur.

## (İMAM ƏLİNİN MÜVASATI (KÖMƏKLİK GÖSTƏRMƏYİ, YAXŞILIĞI.۵۷

لمّـا قَتل على× يوم أحـد أصـحاب الالـويه، قـال جبرئيل: يا رسول الله، إنَّ هـذه لهى المواساه، فقال النبى|: إنّه منى وأنا منه. قال جبرئيل: وأنا منكما يا رسول الله.

Əli (ə) Ühud döyüşündə küfrün pərçəmdarını qətlə yetirdikdən sonra Cəbrail (ə) Peyğəmbərin (s) yanına nazil olub belə dedi: Həqiqətən müvasatın əsil mənası budur. Peyğəmbər (s) buyurdu: "Axı o, məndəndir və mən ondanam." Cəbrail dedi: Ey Allahın (rəsulu! Mən də sizdənəm."(۱)



---

Kənzül- ümmal, cild ۱۳, hədis ۳۶۴۴۹ . [۱]-۱

## ƏMİRƏL MÖMININ, MÖMİNLƏRİN HÖKÜMDARI.۵۸

عن بريده: قال:

أمرنا رسول الله | أن نسلّم على علي × بـ «إمره المؤمنين».

Büreydə belə rəvayət edir ki, Peyğəmbər (s) əmr etdi ki, Əliyə (ə) möminlərin hökümdarı ünvanı ilə müraciət edək.(۱)

səh:۸۰

---

۱- [۱] . Hüzeyfənin qulamı Tarixi Dəməşq (İmam Əlinin (ə) tərcümeyi halı) ۲: ۲۵۹- ۷۸۴. Salimdən nəql olubdur ki, Peyğəmbər (s) əmr etdi ki, Əli ibn əbu Talibə belə salam verək: " Əssəlamu ələykə ya əmirəl- möminin və rəhmətullahi və bərəkatuh." Mənaqibi seyyiduna Əli, Hind çapı, Heydərabad ۱۳۵۲ hicri ۱۸. Bu kitabın ۶۱- ci səhifəsində Ənəsdən belə nəql olubdur: Allahın rəsulu (s) buyurdu: "Ey Ənəs! Bu qapıdan daxil olan ilk şəxs möminlərin əmiri, müsəlmanların sərvəri və ağası və vəsilərin sonuncusudur." Bu mətləbi İbn Əsakir Tarixi Dəməşqdə (۲: ۲۵۹- ۷۸۳) Ənəsdən belə nəql edibdir: Ey Ənəs! Bu qapıdan daxil olan ilk şəxs möminlərin əmiri, təqvalıların rəhbəri və möminlərin sərvəri Əlidir." Həmçinin bax: Mənaqibi Xarəzmi, ۳۲۲- ۳۲۹. Təftazani Şərhül məqasid kitabında (۵: ۲۵۹) belə nəql edir: Peyğəmbər buyurdu: "Əliyə belə salam verin: Ya Əmirəl möminin".

## ƏLİNİ (ə) SEVMƏK PEYĞƏMBƏRİ (S) SEVMƏKDİR.۵۹

عن سلمان الفارسى: قال رسول الله |:

يا علىّ، محبّك محبّى، ومبغضك مبغضى.

:Salman Farsidən: Peyğmbər (ə) buyurdu

(Ey Əli! Səni sevən mənim dostum, sənin düşmənin mənim düşmənimdir.(۱)

səh:۸۱

---

.Əl- firdövs, ۵: ۳۱۶- ۸۳۰۴, Kəşfül xifa, ۲: ۵۳۷ . [۱] -۱

## MÜNAFİQLƏRİ KÖVSƏR HOVZUNDAN UZAQLAŞDIRAN.۶۰

عن أبی سعید: قال رسول الله |:

یا علیّ، معک یوم القیامه عصاً من عصی الجنّه تذود بها المنافقین عن حوضی.

:Əbusəiddən belə nəql olunubdur ki, Peyğəmbər (s) buyurdu

Ey Əli! Qiyamət günü behişt əsalarından bir əsa sənin əlində olacaqdır və onunla (münafiqləri hovuzumun kənarından qovacaqsan.(۱)

səh:۸۲

---

۱- [۱] . Əl- firdövs, ۵: ۳۱۷- ۸۳۰۵, Məcməüz- zəvaid, ۹: ۱۳۵, Əl möcəmüs səğir- ۱۰۱۴ və Təbərani Əl möcəmmil əvsət kitabında (۶: ۷۱- ۵۱۴۹) Abdullah ibn İcarə ibn Qeysdən nəql edibdir ki, Əli mənbər üstündə belə deyirdi: Saribanlar kənar dəvələri öz hovuzlarının kənarından uzaqlaşdıran kimi Öz qısa Əllərimlə kafirləri və münafiqləri Allahın rəsulunun (s) hovuzunun kənarından uzaqlaşdıracağam." Əlmöcəmül- kəbir kitabında (۱: ۳۱۹- ۹۴۸) Əbu Rafedən nəql olubdur ki, Rəsuli əkrəm (s) buyurdu: "(Ey Əli!) Sən və sənin şiələrin kövsər hovuzunun kənarında mənim yanıma gələcəksiniz, halbuki hövuzun suyundan sirab olubsunuz və rüxsarınız ağ olubdur. Amma düşmənlərin bədheybət şəkildə və susuz olan halda mənim yanıma gələcəklər." Əlmöcəmül- kəbir kitabında (۳۱۹- ۹۴۸) Əbu Rafedən nəql olubdur: Peyğəmbər (s) buyurdu: "Sən və sənin ardıcılların sirab olmuş halda və üzü açıq (ağ) hovuzun kənarında mənimlə birləşəcəksiniz amma sənin düşmənlərin teşnə və susuz halda, bəd heybət şəkildə gələcəklər." Məcməüz- zəvaid, ۹: ۱۳۱- ۸۳۱۰, Kənzül- ümmal, ۱۳: ۱۵۷- ۳۶۸۴, Tarixi Dəməşq, cild ۱ hədis ۳۲۹, Cəvahirul- mətalib, ۱: ۷۵- ۲۳۳.

## ƏLİNİN (ə) DÜŞMƏNİNƏ YER ÜZÜNDƏ YOL GETMƏK HARAMDIR.۶۱

عن ابن عباس: قال رسول الله |:

يا على، إنَّ الله عزّوجلّ زوّجك فاطمه وجعل صداقها الأرض، فمن مشى عليها مبغضاً لك يمشى حراماً.

:İbn Abbas deyir: Peyğmbər (ə) buyurdu

Ey Əli! Allah taala Fatiməni səninlə evləndirdi və yeri onun mehriyyəsi qərar verdi. Yer üzündə gedən hər hansı bir şəxsin qəlbində sənin kinin və küdurətin olarsa və ya səninlə düşmənçilik edərsə, bu yol getmək ona haramdır.(۱)

səh:۸۳

---

۱-[۱] . Əl- firdövs, ۵: ۳۱۹- ۸۳۱۰, Tənzihüş- şəriət, ۱, səh ۴۱۱.

## MƏLƏKLƏRİN ƏLİ (ə) ŞİƏLƏRİNƏ HƏDİYYƏSİ.۶۲

عن أبی بکر: قال رسول الله |:

أنَّ الله خلق من نور علیّ بن أبی طالب ملائکه یسبّحون ویقدّسون ویکتبون ثواب ذلک لمحبّیه ومحبّی ولده.

:Əbubəkrdən belə rəvayət olunur ki, Peyğmbər (ə) buyurdu

Allah Əbutalib oğlu Əlinin nurundan mələklər yaratdı və o mələklər Allaha həmd və (səna deyir və onun savabını Əlinin və ya Əli övladlarının dostları üçün yazırlar.(۱)

səh:۸۴

---

Məqtəlül Hüseyn (ə), Xarəzmi, ۱: ۹۷, Fəzaili Əmirəl- möminin (ə), İbn Üqdə, ۳۲- ۲۸, . [۱] -۱ .Mənaqibi Xarəzmi Ömər ibn Xəttabdan, ۳۲۹- ۲۴۸

## ƏLİNİ (ə) İNCİTMƏK PEYĞƏMBƏRİ (S) İNCİTMƏKDİR.۶۳

عن عمر بن الخطاب: قال: كنت أجفو عليّاً، فلقينى رسول الله | فقال:

إنّك آذيتنى يا عمر!

فقلت: أعوذ بالله ممن أذى رسوله!

قال: إنك قد آذيتَ عليّاً، ومن آذى عليّاً فقد آذانى.

Ömər ibn Xəttab deyir: Mən həmişə Əliyə cəsarət edib onu incidirdim. Bir gün Peyğəmbər (s) məni gördü və belə buyurdu: Ey Ömər!

## ƏLİNİN EVİNİN QAPISINDAN BAŞQA BÜTÜN QAPILAR BAĞLANSIN.۶۴

عن سعد بن مالک أمر رسول الله | بسدّ الأبواب الشارعه فی المسجد وترک باب علیّ (قال الهیثمی: رواه أحمد وأبو یعلی والبزار والطبرانی فی الاوسط، وزاد قالوا: یا رسول الله، سددت أبوابنا کلّها إلّا باب علیّ؟ قال:

ما أنا سددت أبوابکم و لکن الله سدّها.

Səd ibn Malik dedi: Allahın rəsulu (s) göstəriş verdi ki, məscidin daxilinə açılan qapıların hamısını bağlayaq və təkcə Əlinin (ə) qapısını açıq qoyaq.

Heysəmi yazır: Bu həqiqəti Əhməd, Əbuəli, Bəzzaz və Təbərani Əvsət (kitabında) rəvayət etmişdir. Əlavə edir ki, onlar dedilər: Ey Allahın rəsulu! Bizim qapılarımızı bağladınız və Əlinin qapısını açıq saxladınız. Həzrət buyurdu: Sizin qapılarınızı mən yox, Allah bağladı.(۱)

səh:۸۶

---

۱- [۱]. Məcməüz- zəvaid, ۹: ۱۱۴.

## HƏR İKİ ALƏMDƏ ALLAH RƏSULUNUN PƏRÇƏMDARI.۶۵

عن جابر، قال: قالوا: يا رسول الله! من يحمل رايتک يوم القيامه؟ قال:

من يحسن أن يحملها إلّا من حملها فی الدنيا؟: علی بن أبی طالب.

Cabirdən belə rəvayətdir ki, bir gün səhabələr Allahın rəsulundan soruşdular: Qiyamət günü sənin bayrağın kimin əlində olacaqdır? Məni incitdin.

Dedim: Allaha pənah aparıram Peyğəmbəri incitməkdən (yəni Allah etməsin ki, Peyğəmbəri incidim).

Buyurdu: Sən Əlini incitdin və hər kəs Əlini incidə, həqiqətdə məni incitmişdir.

Həzrət buyurdu: Bu dünyada o bayraq onun əlində olan şəxsdən başqa kimin buna ləyaqəti ola bilər? (Əli ibn Əbutalib).(۱)

səh:۸۷

---

۱- [۱] . Əl möcəmül- kəbir, Təbərani, cild ۲, hədis ۲۰۳۶, Tarixi Dəməşq, cild ۱, hədis ۲۰۹, Cəvahirül- mətalib, ۱: ۱۸۲. Ənəsdən nəql olubdur ki, Allahın rəsulu (s) müşriklərdən bəraət (uzaqlıq) məktubunu Əbubəkrə tapşırdı və onu Məkkəyə tərəf yolladı. Bir az sonra onu qaytarıb buyurdu: "Bu məktubu təkcə mənim yaxınlarımdan olan şəxs aparmalıdır." Bu zaman Əlini çağırıb məktubu ona tapşırdı ki, Məkkəyə aparsın. Dürrül- mənsur, ۳: ۲۰۹, Fəthul- qədir, ۲: ۳۳۴, bu məzmuna yaxın hədis Kənzül- ümmalda ۲: ۴۲۲ də nəql olunubdur. İbn Abbasdan rəvayətdir: "Əli rəsuli əkrəmin (s) bədr döyüşündə və bütün döyüşlərdə ələmdarı idi." Cəvahirül mətalib, ۱: ۱۸۹, Ət təbəqat, İbn Səd, ۳: ۱۴. İbn Abbasdan nəql olubdur: Ühüd döyüşündə Həzrət Əlinin (ə) əli zədələndi və bayraq əlindən yerə düşdü. Rəsulullah (s) buyurdu: Bayrağı onun sol əlinə verin, çünki, o mənim hər iki cahanda pərçəmdarımdır." Ərriyazün- nəzirə, ۲: ۱۳۸, Cəvahirul- mətalib, ۱: ۱۹۰.

## ƏLİNİN QATİLİ ÜMMƏTİN ƏN BƏDBƏXT VƏ ÜZÜ QARASIDIR.۶۶

عن جابر بن عبدالله، قال: رسول الله | لعليّ×:

مَن أشقى الثَّمود؟ قال: من عَقَر الناقه. قال: فمن أشقى هذه الأمّه؟ قال: الله أعلم. قال: قاتلك.

Cabir ibn Əbdüllahdan belə rəvayət olunur ki, Peyğəmbər (s) Əliyə (ə) buyurdu: ?Bilirsənmi Səmud qövmünün içində ən bədbəxt şəxs kim idi

.(Dedi: O kəs idi ki, Həzrət Salehin dəvəsinin ayaqlarını peylədi (kəsdi

?Həzrət buyurdu: Bəs mənim ümmətimin ən bədbəxti (və üzü qarası) kimdir

.Dedi: Allah daha yaxşı bilər

Buyurdu: Səni qətlə yetirən şəxs (mənim ümmətimin ən bədbəxti və ən bəxti (qarasıdır).(١)

İzah: Səmud qövmü məğrur və qudurğan insanlar idilər. onların Peyğəmbəri Həzrət Saleh (ə) idi. Saleh Peyğəmbər

səh:۸۸

---

Əl- möcəmül kəbir Təbərani, cild ۲, ۲۰۳۷. Əmmardan nəql olubdur: Mən və Əli ibn . [۱] -۱ əbu Talib Züləşirə döyüşündə bir- birimizlə həmsəngər idik. Allahın rəsulu (s) buyurdu: "İstəyirsinizmi sizi iki ən bədbəxt şəxslə tanış edim? Dedim: bəli. Buyurdu: Səmud qövmündən Salehin naqəsini peyləyən şəxs və sənin başına zərbə vurub saqqalını qanına bələyən şəxs." Əlcameül- kəbir, ۱۶: ۲۵۵- ۷۸۶۴, Kənzül- ümmal, ۱۳: ۱۴۰- ۳۶۴۴۲, Məcməüz- zəvaid, ۹: ۱۳۶, Mənaqibi Xarəzmi, ۳۸۷- ۴۰۲, Əl bidayə vən nəhayə, ۷, ۳۲۴, .Tarixi Dəməşq, ۲: ۳۵۱- ۱۴۰۱

onlara nə qədər nəsihət verirdisə faydası yox idi. Onlar o Həzrətdən möcüzə istədilər. Həzrət Saleh (ə) Allahın izni ilə dağdan naqə (dişi dəvə) çıxartdı. Onlar bu ilahi möcüzəni qəbul etmək əvəzinə o naqəni peylədilər və öldürdülər. Onlar naqəni peyləmək və öldürmək üçün ən qəddar və rəhmsiz bir şəxsi seçdilər. Onun adı "Qəddar ibn Salif" idi. O, bir qılınc zərbəsi ilə dəvənin ayaqlarını peylədi və (o gündən) keçmişin ən bədbəxt və yırtıcı ləqəbini aldı. Bu macəradan üç gün sonra ilahi əzab nəticəsində həlak oldular. Şərh dər təfsire nümunə, cild ۲۷, səh ۶۱- ۶۲, ulquyi asimani, .səh ۳۵. Məaref və məarif, cild ۳, səh ۱۳۸۳

## ƏLİNİN (ə) ZİNƏTİ.۶۷

عن عمّار بن یاسر: قال رسول الله|:

یا علی، إنَّ الله تعالی قد زیّنک بزینه لم تزیّن العباد بزینه أحب إلی الله تعالی منها، هی زینه الأبرارعند الله عزّوجلّ: الزهد فی الدنیا، فجعلک لا تزرأ من الدنیا شیئاً ولاتزرأ الدنیا منک شیئاً ووهب لک حبّ المساکین، فجعلک ترضی بهم أتباعاً، ویرضون بک إماماً.

Əmmar ibn Yasir deyir: Peyğmbər (ə) buyurdu: Ey ,Əli! Mütəal Allah səni elə bir zinətlə bəzəyirdi ki, heç bir bəndəsini belə zinətlə bəzəməmişdi. Allah onu hər bir zinətdən çox sevir. O, zinət dünyada zöhd (zahidlik)dir. Bu zinət izzəti və cəlalı uca olan Allahın .yanında ən yaxşı insanların zinətidir

Səni elə yaradıbdır ki, nə dünya sənə kömək edə bilir, nə də dünya səndən bir şey ala bilir. Allah sənin vücudunda yoxsullara məhəbbət yaradıb. Səni elə edibdir ki, onların (rəhbəri olmağına razı ulubsan və onlar da sənin rəhbərliyinə razıdırlar.(۱)



---

Hilyətül – Əvliya, ۱: ۷۱, Tarixi Dəməşq, ۲: ۲۱۲- ۷۱۵, Mənaqibi əmirəl- möminin Əli . [۱] -۱ (ə), ۱۰۵- ۱۴۸, Əsədül- ğabə, ۴: ۱۳, Əl- firdövs, ۵: ۳۱۹- ۸۳۱۱, Cəmül- cəvame, ۱: ۹۶۸. Təbərani Əl möcəmül- əvsət (۳: ۸۹- ۹۰- ۲۱۷۸) kitabında Əmmar ibn Yasirdən nəql edir: Peyğəmbəri əkrəm (s)- dən eşitdim ki, Əliyə buyurdu: "Mütəal Allah səni elə bir zivərlə bəzəyibdir ki, bəndələrindən heç birisini onunla bəzəməmişdir. Mütəal Allah binəvaların və kimsəsizlərin məhəbbətini, onların kənarında olmağı sənin qəlbinə qoyub və sənbi onlara rəhbər seçibdir. Sənə elə ardıcıllar qərar veribdir ki, sənin rəhbərliyinlə iftixar edirlər. Xoş sənin halına ki, onlar səni sevir və qəbul edirlər. Vay olsun səninlə düşmənçilik edənlərə!" Xarəzmi Əl mənaqib kitabında (۱۱۷- ۱۲۸) Ömər ibn Əbdüləzizdən belə nəql edir: "Peyğəmbərdən (s) sonra ümmət arasında Əli ibn əbu .Talibdən zahid şəxs tanımıram." Tarixi Dəməşq, ۳: ۲۵۲- ۱۲۸۹

## KÖVSƏR HOVUZUNUN SAHİBİ.۶۸

səh:۹۱

عن أبی هریره و جابر بن عبدالله، قالا: قال رسول الله |:

علیّ بن أبی طالب صاحب حوضی یوم القیامه.

Əbu Hüreyrə və Cabir ibn Abdullahdan belə nəql olunubdur ki, Allahın rəsulu (s) buyurdu: Qiyamət günü mənim hovuzumun sahibi Əli ibn Əbutalib olacaqdır.(۱)

səh:۹۲

---

۱- [۱] . Əl- möcəmül- əvsət, Təbərani, ۱- ۱۵۲- ۱۶۲, Kənzül- ümmal, ۲- ۱۷.

## İLK MÜSƏLMAN.۶۹

İLK MÜSƏLMAN.۶۹

عن أنس، عن رسول الله |:

صلّت الملائكه عليّ وعلى على بن أبى طالب سبع سنين، وذلك أنّه لم تُرتفع شهاده أن لا إله إلّا الله إلى السماء إلّا منّى ومن علىٍّ.

Ənəsdən nəql olunur ki, Peyğəmbər (s) buyurdu: Mələklər yeddi il idi ki, Əli ibni Əbutalibə salavat və salam göndərirdilər. Bu, o zaman idi ki, hələ tövhid şüarı və "la ilahə illəllah" kəlməsi mən və Əlidən başqa heç bir kimin tərəfindən göyə qalxmırdı.(۱)

səh:۹۳

---

۱- [۱] . Mənaqibi Xarəzmi, ۵۳- ۱۸, Tarixi Dəməşq, ۲۱: ۸۱- ۱۱۴. Mənaqibi Ali əbu Talib kitabında (۱- ۲۹۱) Əbuzərdən belə nəql olubdur: Allahın rəsulu (s) buyurdu: "İlahi Mələklər yeddi il idi ki, mənə və Əliyə salam göndərirdilər və o zaman heç kəs islam dininə iman gətirməmişdi." İbn Abbasdan nəql olubdur ki, Allahın rəsulu (s) buyurdu: "Mənimlə namaz qılan ən ilkin şəxs Əlidir." Əl- firdövs, ۱: ۲۷- ۳۹, Kənzül- ümmal, ۳۹۹۲, Xarəzmi Nəsai, ۱۶

## ƏLİ (ə) PEYĞƏMBƏRİN (S) QARDAŞI.٧٠

عن عبدالله بن عمر. قال رسول الله |:

على أخى فى الدنيا والآخره.

Əbdulllah ibn Ömərdən belə nəql olunur ki, Peyğəmbər (s) buyurdu: Əli dünya və (axirətdə mənim qardaşımdır.(١)

səh:٩۴

---

Termizi öz sünən kitabında (۵: ٣٣۶- ٧٣٢٠) İbn Ömərdən belə rəvayət edir: . [١] -١ Peyğəmbəri əkrəm (s) səhabələrin arasında qardaşlıq əhd- peymanı bağladı (və Əli bu zaman tək qaldı.) Gözü yaşla Peyğəmbərin (s) hüzuruna gəlib ərz etdi: Ey Allahın peyğəmbəri! Səhabələr arasında qardaşlıq əqdi oxudun, amma mənimlə bir kəs arasında peyman bağlamadın? " Həzrət buyurdu: "Sən həm bu dünyada və həm axirətdə mənim qardaşımsan." Hakim Müstədrəkdə (٣: ١۴), Siyuti Əl- cameüs- səğirdə (۵۵٨٩ əkrəm (s) buyurdu: "And olsun məni haqqa göndərən Allaha! Səni özümə qardaş etmək üçün axıra saxladım. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətidir, bu fərqlə ki, məndən sonra peyğəmbər olmayacaqdır. Sən mənim qardaşım və varisimsən." Əli dedi: "Ey Allahın rəsulu! Mən səndən nəyi irs aparacağam? Buyurdu: "Məndən qabaqkı peyğəmbərlərin qoyduqları irsi." Soruşdu: "Qabaqkı peyğəmbərlər nəyi irs qoyublar? Buyurdu: Allahın kitabını və peyğəmbərlərin sünnələrini. Sən mənim qardaşım və dostumsan." Bu hədisi Əhməd, Mənaqibi Əli kitabında gətiribdir. Kənzül-ümmal, ١٣: ١٠۵- ١٠۶ hədis ٣۶٣۴۵. Nə qədər yaxşı olar ki, Əlini (ə) sevənlər, "qardaşlıq əqdi" hədislərini zikr edərkən əmirəl- mömininə (ə) nisbət verilmiş bu şerə də diqqət yetirsinlər. Bu şerin tərcüməsi Kənzül- ümmal (١٣: ١١٢) kitabında belə gəlibdir:" "Allahın rəsulu (s) mənim qardaşım və xanımımın atasıdır. Həmzə Seyyidüş- şühəda əmimdir. Səhər və axşam behiştdə mələklərlə pərvaz edən Cəfər Təyyar qardaşımdır. Məhəmmədin (s) qızı Fatimə həyat yoldaşımdır. O, mənim canımdır əti ətimlə və qanımla birdir. Peyğəmbərin (s) nəvələri (Həsən (ə) və Hüseyn (ə) ) mənim Fatimədən olan iki övladımdır. Kimin mənim kimi nəsibi var? Hələ uşaqkən Allaha və Peyğəmbərə .iman gətirməkdə sizin hamınızdan qabaqcıl oldum

## PEYĞƏMBƏRİN QARDAŞI VƏ VƏZİRİ.۷۱

səh:۹۵

قال رسول الله |:

أخی و وزیری، وخیر من أترک بعدی، یقضی دینی، وینجز وعدی علی بن أبی طالب.

:Allahın rəsulu (s) buyurdu

Mənim qardaşım, vəzirim və mənim qalan vəzifələrimi əda edə biləcək və vədələrimi yerinə yetirə biləcək özümdən sonrakı qoyduğum ən yaxşı şəxs Əli ibni Əbutalibdir.(١)

səh:٩۶

---

١- [١] . Əl- məvaqif fi elmil- kəlam, İci, ۴٠٩ Büreydədən nəql olubdur ki, Rəsuli əkrəm (s) buyurdu: "Hər bir peyğəmbərin vəsisi və varisi var, Əli mənim vəsim və varisimdir." Əl- firdövs, ٣: ٣٣۶- ۵٠٠٩, Tarixi Dəməşq, ٣: ۵- ١٠٢١ və ١٠٢٢, Mənaqibi Xarəzmi, ٨۴- ٧۴, Mənaqibi ibn Məğazili ٢٠٠- ٢٣٨, Fəthül bari, ٨- ١۵٠. Mənaqibi seyyiduna Əli (ə) kitabında gəlibdir ki, Allahın rəsulu (s) Əli (ə)- a buyurdu: "Sən mənim qardaşım, yoldaşım və vəsimsən." Salman deyir: Ərz etdim: Ey Allahın rəsulu! Hər peyğəmbərlərin vəsisi olub, bəs sənin vəsin kimdir? Həzrət cavab vermədi. Səhəri gün peyğəmbər (s) məni gördü və buyurdu: "Ey Salman!" Tələsiklə özümü həzrətin hüzuruna yetirdim və ərz etdim: "Bəli". Həzrət buyurdu: "Bilirsənmi Musanın vəsisi kim idi?" Ərz etdim: Bəli, "Yuşə ibn Nun." Buyurdu: "Nə üçün o, Musanın vəsisi idi?" Ərz etdim: " Çünki, o zaman onların ən alimi idi." Buyurdu: "Mənim vəsim və sirlərimin məhrəmi, ən üstün şəxsdir. Onu özümdən sonra (öz yerim) və həmçinin müəllif mənaqibi seyyiduna Əli (ə) kitabında Zeyd ibn Ərqəmdən belə nəql ediblər: Allahın rəsulu (s) Əliyə buyurdu: "Sən mənim qardaşım və dostumsan" Firdosul- əxbar kitabında (٣: ١۵- ۴١٨٢) Peyğəmbərdən (s) belə nəql olunur: "Əli mənim qardaşım və əmim oğludur." İbn Əsakir İbn Abbasdan rəvayət edir ki, Allahın rəsulu (s) buyurdu: "Qardaşların ən yaxşısı Əli, əmilərimin ən yaxşısı Həmzədir." Tarixi Dəməşq, ١: ١٣٨, Məcməüz- zəvaid, ٩- ١١١. Xatırladırıq ki, "Müaxat" hədisi iki firqə arasında məşhur hədislərdəndir və qardaşlıq əhd və peymanı bağlamaq bir dəfədən çox olubdur. Başqa bir hədisdə Zeyd ibn Əvfanın müsnədində müaxat babında belə gəlibdir: Elə ki, Əli (ə) qardaşlıq əqdinin təxirə düşməsindən şikayət etdi, Peyğəmbər də) qoyuram. O, mənim vədələrimə vəfa edər və dinimi yayar. O, Əli ibn əbu Talibdir." Əl- möcəmül kəbir, ٢٢١- ۶٠۶٣, Möcəmüz zəvaid, ٩: ١١٣, Mənaqibi Xarəzmi,

.۶۷, Kənzül- ümmal, ۱۳: ۶۱۱- ۳۲۹۵۶. Mənaqibi seyyiduna Əli (ə) ۳۹

عن عمّار بن یاسر، سمعنا رسول الله | یقول:

علی مع الحق والحق مع علی، لا یفترقان حتّی یردا علی الحوض یوم القیامه.

Əmmar ibn Yasir deyir: Allahın rəsulundan eşitdim ki, belə buyururdu: Əli haqla və haqq Əli ilədir. Bunlar qiyamət günü kövsər hovuzunun kənarında mənə birləşənədək (bir- birindən ayrılmayacaqlar.(١)

səh:٩٨

---

١- [١] . Əl meyar vəl müvazinə, İskafi, ١١٩ Tarixi Dəməşqdə (٣: ١٥٣- ١١٧٢) Əbuzərin qulamı Əbu Sabitdən nəql olubdur: Bir gün Ümmü Sələmənin yanına getdim və gördüm ki, Əlini xatırlayır, ağlayır və deyir: Allahın rəsulundan (s) eşitdim ki, buyurdu: Əli haqla, haqq Əli ilədir. Qiyamət günü hovuzun kənarında mənim yanıma yetişənədək bir- birindən ayrılmazlar." Əbdürrəhman ibn Səiddən nəql olubdur: Biz bir qrup mühacirlə peyğəmbərin hüzuruna getdik, Əli də orada idi. Peyğəmbər (s) buyurdu: "Haqq bununladır." Bu sözü Heysəmi Məcməüz- zəvaiddə (٧: ٢٣۴) və İbn Əsakir Tarixi Dəməşqdə (٣: ١٥٣- ١١٧١) nəql edibdir. Əbu Musa Əşəri: Rəsuli əkrəm (s) Əliyə (ə) buyurdu: "Sən haqlasan və haqq sənlədir." Mənaqibi seyyiduna Əli (ə) (٢٩), Şərhi nəhcül- bəlağədə İbn Əbil Hədid, (١٨- ٢۴.) Buna yaxın məzmun Mənaqibi Seyyiduna Əli kitabında Ayişədən nəql olubdur.

## GİZLİ KİNLƏR.۷۳

عن عليّ×:

بينما رسول الله| آخِذٌ بيدی، ونحن نمشی فی بعض سكك المدينه، إذ أتينا علی حديقه، فقلت: يا رسول الله، ما أحسنها من حديقه! قال: لك فی الجنّه أحسن منها. ثمّ مررنا بأُخری فقلت: يا رسول الله، ما أحسنها من حديقه! قال: لك فی الجنّه أحسن منها. حتّی مررنا بسبع حدائق، كلّ ذلك أقول: ما أحسنها! ويقول: لك فی الجنّه أحسن منها.

فلمّا خلا له الطريق اعتنقنی، ثم أجهش باكياً. [قال: قلت: يا رسول الله، ما يبكيك؟ قال: ضغائن فی صدور أقوام لا يبدونها لك إلّا من بعدی].

قال: قلت: يا رسول الله، فی سلامه من دينی؟

قال: فی سلامه من دينك.

Əli (ə) buyurur: Bir gün Peyğəmbərlə (s) Mədinənin bəzi küçələrində gəzirdik. Əlim onun əlində idi. Bir bağın kənarından keçdik. Ərz etdim: Ey Allahın rəsulu! Bu, nə gözəl !?bağdır

Buyurdu: Cənnətdə sənin üçün hazırlanan bağ bundan da gözəldir. Sonra .addımlayaraq başqa bir bağa yetişdik. Ərz etdim: Ey Allahın rəsulu! Bu bağ da gözəldir

.Buyurdu: Sənin cənətdəki bağın bundan da gözəldir

Beləliklə yeddi bağ keçdik və onların hamısında mən qabaqkı sözləri dedim və Peyğəmbər (s)- də həmin cavabı buyurdu: Yolun sonuna yetişdikdə Peyğəmbər (s) .məni qucaqlayıb hay- hayla ağladı

?Ərz etdim: Ey Allahın rəsulu! Nə üçün ağlayırsan

Buyurdu: (Ona görə ağlayıram ki,) bir dəstə öz ürəklərində sənin kinini saxlayır və .məndən sonra onu aşkar edəcəklər

səh:۹۹

?Soruşdum: (O zaman və o halda) mən dinimdə salamat olacağammı

(Buyurdu: Bəli. Sən dinində salamat olacaqsan.(۱)



---

۱- [۱] . Tarixi Dəməşq, ۲: ۳۲۱- ۸۲۷- Tarixi Bağdad ۱۲: ۳۹۸, Müsnədi əbu Yəla, ۱: ۲۸۵- ۵۶۱,
۱۱۰۲ -۶۵۲ Fəzailüs- səhabə, ibni Hənbəl, ۲, səh ,۸۳۱.

## !ATAM TƏK ŞƏHİDƏ QURBAN.۷۴

عن عائشه: رأيت النبى | التزم عليّاً و قبّله و يقول:

بأبى الوحيد الشهيد، بأبى الوحيد الشهيد.

Ayişə deyir: Bir gün gördüm ki, Peyğəmbər (s) Əlini qucaqlayaraq onu öpür və buyurur: (Atam qurban olsun o tək şəhidə, atam o tək şəhidə fəda olsun.(۱)

səh:۱۰۱

---

۱- [۱] . Müsnədi əbi Yəla, ۴: ۳۱۸- ۴۵۵۸, Tarixi Dəməşq, ۳: ۲۸۵- ۱۳۷۶.

## PEYĞƏMBƏRLƏ BƏRABƏR DƏRƏCƏDƏ.۷۵

عن عليّ×: ان رسول الله| أخذ بيد حسن و حسين فقال:

من أحبّنى وأحبّ هذين وأباهما وأمّهما كان معى فى درجتى يوم القيامه.

Əli (ə) buyurdu: Allahın rəsulu (s) Həsən və Hüseynin əlini tutaraq buyurdu:

Hər kəs məni, bu iki nəfəri, bunların ata və anasını sevə (qiyamət günü) onlarla olacaqdır.(۱)

İzah: Bu, buna xatirdir ki, hər kəs hər kimi sevərsə (qiytamətdə) onunla olacaqdır.

səh:۱۰۲

---

